

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 17 (24.154)

*28 yanvar 2023-cü il, şənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev “Brookfield Asset Management” şirkətinin baş icraçı direktorunu qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də dünyanın aparıcı maliyyə şirkətlərindən biri olan “Brookfield Asset Management” şirkətinin baş icraçı direktoru Brüs Flətti qəbul edib.

Ölkəmizin əldə etdiyi nailiyyətlərin böyük maraq doğurduğunu vurğulayan Brüs Flətt Bakıda gördükləri inkişaf proseslərinin dərin təəssürat hissi yaratdığını dedi. Qonaq “Brookfield Asset Management” şirkətinin Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə uğurlu əməkdaşlığının genişləndiyini vurğuladı və bildirdi ki, rəhbərlik etdiyi şirkət peşəkar səviyyədə fəaliyyət göstərən ARDNF ilə əlaqələrindən qürur duyur. O, həmçinin Azərbaycanın əldə etdiyi uğurların ölkəmizin böyük nailiyyəti olduğunu vurğulayaraq təbriklərini çatdırdı.

Prezident İlham Əliyev Azərbaycan Dövlət Neft Fondunun dünyanın aparıcı maliyyə institutlarından biri olan “Brookfield Asset Management” şirkəti ilə uğurlu əməkdaşlığından məmnunluğunu bildirərək əlaqələrin genişləndirilməsi üçün yaxşı potensialın mövcud olduğunu dedi. Azərbaycan Dövlət Neft Fondunun fəaliyyətinin daim genişləndiyini vurğulayan dövlətimizin başçısı Fondun aktivlərinin hətta ən çətin dövrlərdə, o cümlədən pandemiya, maliyyə böhranları və neftin qiymətinin düşdüyü bir zamanda da artdığını qeyd etdi.

Görüşdə, həmçinin Azərbaycanın yaşıl enerji potensialı və ölkəmizin regionda enerji habına çevrilməsi imkanları barədə fikir mübadiləsi aparıldı.

Qeyd edək ki, dünyanın ən böyük investisiya şirkətlərindən biri olan və əsas ofisi Kanadada yerləşən “Brookfield Asset Management” 1899-cu ildə təsis olunub və idarə etdiyi vəsaitlərin toplam dəyəri 750 milyard ABŞ dolları təşkil edir.

## Prezident İlham Əliyev Azərbaycanın İrandakı səfirliyinə hücumla bağlı paylaşım edib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizin Tehrandakı səfirliyinə xain hücumla əlaqədar tviterdə paylaşım edib.

Paylaşımda deyilir: “Bu gün Tehrandakı səfirliyimizə qarşı törədilmiş terror aktını şiddətlə qınayıram. Səfirliyin və səfirlik əməkdaşlarının mühafizəsini təmin edərkən həlak olan baş leytenant Əsgərov Orxan Rizvan oğlunun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirəm.

Bu terror aktının tezliklə araşdırılacağını və terrorçuların cəzalandırılacağını tələb edirik. Diplomatik nümayəndəliklərə qarşı terror hücumu qəbuledilməzdir!”

**AZƏRTAC**

## Naxçıvan Muxtar Respublikasının Ali Məclisi terror aktını şiddətlə pislədi və başsağlığı verdi

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bu gün səhər saatlarında Azərbaycanın İrandakı səfirliyində törədilən terror aktını şiddətlə pisləyib və başsağlığı verib:

“Ölkəmizin İrandakı səfirliyinə qarşı törədilmiş terror aktını şiddətlə pisləyir, səfirliyin həlak olan mühafizə xidmətinin rəisi, baş leytenant Əsgərov Orxan Rizvan oğlunun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, yaralılara şəfa diləyirik”.

**“Şərq qapısı”**

## Azərbaycanın bundan sonrakı inkişafı təbii sərvətlərə deyil, insan zəkası və innovasiyalara əsaslanır

### *Dünya İqtisadi Forumundan çıxan nəticələr*

Son iki yüz ildə sənaye sektoru müxtəlif mərhələləri keçərək elm və texnoloji yeniliklərin nəticəsində həyatımızın bütün sahələrində öz əksini tapıb. Hazırda isə sənaye sahəsi özünün yeni mərhələsinə qədəm qoyub. Elmi dairələrdə bu yeni dövrü “IV sənaye inqilabı dövrü” adlandırırlar. Dördüncü Sənaye İnqilabı süni intellekt, robotexnika, əşyaların internet, 3D çap, gen mühəndisliyi, kvant hesablamaları və digər texnologiyalarda irəliləyişlərin birləşməsidir. Qlobal trendlərin tətbiqinə hər zaman adekvat cavab verən Azərbaycanda da IV sənaye inqilabının çağırışları ən yüksək səviyyədə təhlil olunur, ölkəmizdə rəqəmsal iqtisadiyyatın və texnologiyaların inkişafi üçün əlverişli infrastrukturun formalaşdırılması istiqamətində fəal iş aparılır. Elə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 yanvar tarixli Fərmanı ilə yaradılmış Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi də ölkəmizin bu sahədə mövqeyini gücləndirmək, qabaqcıl texnoloji imkanlardan maksimum yararlanmaq, bu sahədə beynəlxalq təşkilatlarla əməkdaşlıq və koordinasiya həyata keçirmək məqsədinə xidmət edir. Mərkəz Azərbaycan Respublikası ilə Dördüncü Sənaye İnqilabı sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlığı və bu sahədə əlaqələndirməni, həmçinin rəqəmsal iqtisadiyyat üzrə çağırışların, təşəbbüslərin, strategiyaların və layihələrin təhlilini və koordinasiyasını həyata keçirir.




Xatırladaq ki, 2020-ci il 21 yanvar tarixdə İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumunda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Dünya İqtisadi Forumunun prezidenti cənab Borge Brende arasında Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin Azərbaycan Mərkəzinin yaradılması ilə bağlı niyyət protokolu imzalanmışdır. Bunun əsasında Azərbaycanda Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin Mərkəzi yaradılmışdır. Bu, MDB məkanında yaradılan ilk mərkəzdir. Yeri gəlmişkən, IV Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi 2021-ci il 1 aprel tarixdən bu mərkəzin fəaliyyətini də koordinasiya edir. Mərkəz Dünya İqtisadi Forumunun süni intellekt və maşın öyrənməsi, əşyaların interneti və şəhər transformasiyası, eləcə də rəqəmsal ticarət və iqtisadiyyat platformaları ilə əməkdaşlıq edir. Bir neçə gün bundan əvvəl Davos İqtisadi Forumunda dövlət başçısı ilə forumun prezidenti Borge Brende arasında əməkdaşlıq sazişinin təntənəli mübadiləsinin həyata keçirilməsi Azərbaycanın yeni sənaye inqilabına doğru qətiyyətli addımlar atdığını göstərir. Prezident cənab İlham Əliyev Azərbaycan Hökuməti və Dünya İqtisadi Forumunun IV Sənaye İnqilabı Mərkəzi arasında əməkdaşlıq sazişinin vacibliyini qeyd edərək bildirdi ki, bu sənəd bizim tərəfdaşlıq ruhumuzu və qarşılıqlı səylərimizi davam etdirməkdə istəkli olduğumuzu nümayiş etdirir. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan Dördüncü Sənaye İnqilabının hədəflərinin həyata keçirilməsində çox fəal iştirak edəcək. Keçən il Azərbaycanda qeyri-neft sektorunun 9,1 faiz artdığını vurğulayan Prezident cənab İlham Əliyev əminliklə bildirdi ki, biz bu vacib layihədə yaxşı tərəfdaşlar olacağıq. Forumun dünyada gedən transformasiya prosesinin yeni təmayülləri və çağırışların müzakirəsi baxımından əhəmiyyətini vurğulayan dövlətimizin başçısı Azərbaycanın öz inkişaf strategiyasını yenilənən beynəlxalq və regional təmayüllər nəzərə alınmaqla qurduğunu bildirdi.

Dünya İqtisadi Forumunun prezidenti cənab Borge Brende də, öz növbəsində, Forumla Azərbaycan Respublikası arasında əməkdaşlıqdan, ölkəmizin bölgədə oynadığı roldan məmnunluğunu ifadə edərək bu əlaqələri yüksək qiymətləndirdi.

Buradan isə gəlinən nəticə odur ki, dünyanın ən böyük beynəlxalq qeyri-hökumət təşkilatı olan Dünya İqtisadi Forumu Azərbaycanla əlaqələrə böyük maraq göstərir, bu əməkdaşlığın daha irəliyə getməsi üçün səylə çalışır. Nəzərə alaq ki, Azərbaycan Respublikası ilə forum arasında yaradılmış əməkdaşlığın, eyni zamanda ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasətin mahiyyətinin nəticəsidir ki, Azərbaycan 2018-ci ildə ənənəvi inklüziv inkişaf indeksində inkişaf edən ölkələr arasında üçüncü yeri tutmuşdur. Həmçinin bu beynəlxalq təşkilat ölkəmizin Şərqlə Qərb arasındakı beynəlxalq əlaqələrin əsas təminatçısı kimi oynadığı mühüm rolu nəzərə alaraq öz tarixi fəaliyyəti dövründə hər il ənənəvi olaraq təşkil etdiyi tədbiri ABŞ-dan əlavə yalnız Azərbaycanda – Bakı şəhərində təşkil etmişdir. 2013-cü ildə “Cənubi Qafqazın və Mərkəzi Asiyanın gələcəyinə dair strateji dialoq” mövzusunda keçirilmiş Dünya İqtisadi Forumu, həqiqətən də, bu dünyəvi qurumun ölkəmizin iqtisadi inkişafında qazanılmış uğurlara verilən yüksək tarixi bir dəyər kimi qiymətləndirilir. Görünən odur ki, Azərbaycanın bundan sonrakı inkişafı təbii sərvətlərə deyil, insan zəkası və innovasiyalara əsaslanır.

**Səbuhi HƏSƏNOV**

## Türkiyənin Naxçıvandakı Baş konsulu Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində olub



Yanvarın 27-də Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri Daşqın Rəhimov Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Asip Kaya ilə görüşüb.

Görüşdə ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olduğu vurğulanıb, ikitərəfli münasibətlərimizin müxtəlif sahələrdə inkişafının möhkəmləndiyi qeyd edilib. Baş konsul Asip Kaya səmimi görüşə görə minnətdarlığını bildirib, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında bütün sahələr üzrə əməkdaşlığın bundan sonra da uğurla həyata keçiriləcəyinə əminliyini ifadə edib.

Sonra hüquqi əməkdaşlıq məsələləri, eyni zamanda ədliyyə fəaliyyəti ətrafında faydalı fikir mübadiləsi və qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi aparılıb.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

## Dövlət qurumlarına aid internet resurslarının *"GOV.AZ"* zonasına köçürülməsi davam etdirilir




Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən Naxçıvan Muxtar Respublikasında dövlət qurumlarının internet səhifələrinin *"GOV.AZ"* zonasına qeydiyyatdan keçirilməsi və təhlükəsizliyinin gücləndirilməsi ilə bağlı müvafiq tədbirlər davam etdirilir. Həyata keçirilən tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin *(nagro.gov.az)* və Dövlət İmtahan Mərkəzinin *(ndim.gov.az)* informasiya resursları AzStateNet şəbəkəsinə köçürülüb.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin və Dövlət İmtahan Mərkəzinin rəsmi internet saytları Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mühəndis-proqramçıları tərəfindən müasir proqramlaşdırma dillərindən istifadə edilərək hazırlanmışdır.

Yeni internet səhifələrinin təhlükəsizliyinin təmin edilməsi, axtarış sistemlərində qeydiyyatdan keçirilməsi və axtarış sistemlərində ön sıralarda tapılması üçün nazirliyin mühəndisləri tərəfindən zəruri texniki tədbirlər həyata keçirilib. Həmçinin saytların




domen ünvanları da müvafiq qaydada yenilənməklə domenə bağlı e-poçt adresləri ilə təmin ediləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində keçirilən kollegiya iclasında xidmətin rəisi, III dərəcəli dövlət miqrasiya xidməti müşaviri Şahin Nəbiyev ölkəmizdə həyata keçirilən ardıcıl və sistemli tədbirlər barədə geniş məruzə edib. Bildirib ki, ölkə başçısının müvafiq Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi institutunun yaradılması və səlahiyyətli nümayəndənin təyin olunması Naxçıvanda effektiv idarəçiliyin təmin edilməsi, vətəndaşla dövlət orqanları arasında dialoqun müasir tələblər və qanun çərçivəsində qurulması, habelə digər məsələlərin operativ həlli baxımından müstəsna əhəmiyyət kəsb etməkdədir.*

## Görülən işlərə və qarşıda duran vəzifələrə həsr olunan kollegiya iclası keçirilib



Diqqətə çatdırılıb ki, muxtar respublikaya gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin qeydiyyatı, müvəqqəti və daimi yaşaması, iş icazələrinin verilməsi, vətəndaşlıq məsələləri və bu sahəni ehtiva edən digər məsələlərlə bağlı, ümumilikdə, xidmətə 7130 müraciət daxil olmuş, o cümlədən muxtar respublika ərazisində nikahı pozulan və ölümü qeydə alınan 10 əcnəbi barəsində isə qanunvericiliyin tələblərinə uyğun olaraq müvafiq araşdırmalar aparılmışdır.

Diqqətə çatdırılıb ki, muxtar respublikaya gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin qeydiyyatı, müvəqqəti və daimi yaşama, iş icazələrinin verilməsi, vətəndaşlıq məsələləri və bu sahəni ehtiva edən digər məsələlərlə bağlı olma qaydalarının tənzimlənməsi, qeyri-qanuni miqrasiya ilə mübarizə və miqrasiyanın mənfi təzahürlərinin qarşısının alınması işi Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən 2022-ci il ərzində də ciddi nəzarətdə saxlanılmışdır. Hesabat dövrü ərzində muxtar respublikada qeydiyyatsız olan, qanunsuz yaşayan, qanunsuz əmək fəaliyyəti ilə məşğul olan və müvəqqəti yaşamaq üçün icazə vəsiqəsini itirən 625 əcnəbi, habelə iş icazəsi almadan əcnəbiləri qanunsuz əmək fəaliyyətinə cəlb edən 1 Azərbaycan Respublikası vətəndaşı aşkarlanmışdır. Eyni zamanda Miqrasiya Məcəlləsinə əsasən 5 əcnəbi barəsində ölkə hüdudlarından kənara çıxarma barədə qərar qəbul edilmiş, miqrasiya sahəsində qanunvericiliyin tələblərini pozan 4 əcnəbi isə könüllü olaraq xidmətin Qanunsuz miqrantların saxlanılması mərkəzində saxlanılmışdır.

Vurğulanıb ki, bu dövr ərzində əcnəbilərin olduğu yer üzrə qeydiyyatı, müvəqqəti yaşama, iş icazələrinin verilməsi, sərhəd-keçid prosedurlarının sadələşdirilməsi və sürətləndirilməsi, sərhəd-buraxılış məntəqələrində sürətli keçidin təmin edilməsi sahəsində Dövlət Miqrasiya Xidməti tərəfindən zəruri tədbirlər görülərək muxtar respublikaya gələn əcnəbilərin olduğu yer üzrə qeydiyyatının elektron, eləcə də muxtar respublikanı tərk edən əcnəbilərin pasportlarına və digər sənədlərinə nəzarətin isə operativ qaydada həyata keçirilmişdir.

Şahin Nəbiyev bildirib ki, "Heydər Əliyev İli"ndə də milli prioritetlərimiz rəhbər tutulmaqla miqrasiya sahəsində dövlət siyasəti uğurla reallaşdırılacaq, miqrasiya proseslərinin tənzimlənməsi və idarə olunması sahəsində maksimum qüvvə səy göstəriləcək, eyni zamanda müraciət edən şəxslərin məmnunluğunun təmin olunması daim diqqətdə saxlanılmaqla xidmətin fəaliyyət müasir tələblər səviyyəsində davam etdiriləcəkdir.

İclasda hesabat dövrü ərzində görülən işlərlə bərabər, yol verilmiş nöqsan və çatışmazlıqlar da müzakirə edilib.

Kollegiya iclası məruzə ətrafında çıxışlarla davam edib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

*Yeni nəşrlər*

## "Bu yol Şuşa yoludur" və "Naxçıvan Muxtar Respublikasının turizm marşrutları" adlı kitablar işıq üzü görüb

*Azərbaycan dövlətinin təhsil sahəsində də uğurla həyata keçirdiyi islahatlara uyğun olaraq Naxçıvan Dövlət Universitetində görülən işlər bu ali təhsil ocağında elmi araşdırmaların və tədris prosesinin keyfiyyətini yüksəltməyə zəmin yaratmışdır. Dövlət başçısının ali təhsil sahəsində qarşıya qoyduğu vəzifələrin icrası istiqamətində yaradılmış şəffaf elmi və səmərəli təhsil mühiti universitetdə öz bəhrəsini verməklə yeni çap məhsullarının kütləvi oxucularla görüşməsinə vəsilə olmuşdur. Bu yaxınlarda Naxçıvan Dövlət Universitetinin dosenti, iqtisad üzrə fəlsəfə doktoru Əli Cabbarovun müəllifliyi ilə çapdan çıxmış "Bu yol Şuşa yoludur" və "Naxçıvan Muxtar Respublikasının turizm marşrutları" adlı kitabların işıq üzü görməsi qeyd olunan məsələlərin gerçək nəticəsi kimi qiymətləndirilməlidir. Yeni nəşrlər, adları ilə tarixi Zəfərimizin qazanılması və ölkəmizin milli iqtisadi islahatlar müstəvisində əldə etdiyi uğurların və gələcək perspektivlərin olduqca zəruri ifadəsini təşkil etməkdədir.*

Hər şeydən əvvəl, onu qeyd etmək lazımdır ki, kitablar müəllifin çox böyük vətənpərvərlik ruhu ilə işlənmiş, peşəkarlığı ilə təhlillər aparılmış və milli iqtisadiyyatımızın uzunmüddətli perspektivlərini ifadə edən nəticələri ilə tamamlanmışdır. Bütövlükdə, 136 səhifədən ibarət olan "Bu yol Şuşa yoludur" adlı kitabı vərəqləyərkən Müzəffər Ali Baş Komandanımızın, qəhrəman Milli Ordumuzun, qədirbilən xalqımızın birliyi ilə müqəddəs ruhları qarşısında baş əydiyimiz əziz şəhidlərimizin canları bahasına İkinci Qarabağ müharibəsində qazandığımız tarixi Zəfər nəticəsində torpaqlarımızın işğaldan azad olunmasını ifadə edən məqalələr yer alıb. Kitabda yer alan məqalələr, "Xalq qəzeti", "Respublika" "Şərq qapısı", *mia.az*, *axar.az*, *www.aqreqator.az*, *www.moderator.az* və sair kimi nüfuzlu qəzet və saytlarda yayımlanmış, 2022-ci ilə – "Şuşa ili"nə töhfə kimi kitab halında çap olunmuşdur.

Əli Cabbarovun bu mövzuda ilk məqaləsi, eləcə də ilk qələm təcrübəsi 2004-cü ildə "Respublika" qəzetində yayımlanmış "Erməni terrorizmi və onun təbliğat eybəcərlikləri" adlı yazıdır. Torpaqlarımızın erməni işğalından xilas olunması ilə nəticələnmiş Vətən müharibəsi başlanandan 2022-ci ilin sonuna qədər yayımlanmış 33 elmi və publisistik əsəri təkcə doğma Şuşamızla bağlı olan hissləri deyil, sanki Şuşaya aparan Zəfər yolunun yönünü, cizgilərini göstərir. Qəhrəman şəhidlərimizin xatirəsinə həsr olunaraq bu kitabda dərc edilmiş "Bu yol Şuşa yoludur" adlı şeir hələ Vətən müharibəsi yeni başladığı, ilk kəndlərimizin azad olunması müjdəsi ilə qələmə alınmış, qəhrəman əsgərlərimizi Şuşanın fəthinə çağırmışdı. "Torpağımıza dönəcəyim gün gələr", "Bakı-Xankəndi-Şuşa turizm marşrutu", "Doğma torpaqlara qayıdanda müqəddəs Əshabi-Kəhfdən torpaq aparacağıq ki, paklaşsın", "Əsgərlərimizdə həmişə böyük ruh yüksəkliyi var idi", "İşğal sonrası Qarabağ iqtisadiyyatı və turizmin inkişafı", "Naxçıvan Dəmir Yolu dünya şəbəkəsinə qoşulmağa tam hazırdır", "Dəmir yumruq", "Qars müqaviləsindən Zəngəzur dəhlizinə aparan Böyük Türk qapısı-Naxçıvan", "Naxçıvan-Zəngəzur-Şuşa turizm marşrutu (I və II hissələr)", "Şuşa gözəldir", "Şuşanın Novruz büsatı (esse)", "Mən Şuşama vurğunam" adlı digər məqalə və şeirlər öz ədəbi-bədii tutumu, zəngin tarixi faktları ilə yeni nəşri oxuculara sevdirən yazılardır. Bu məqalələr, eyni zamanda işğal sonrası ölkəmizin milli iqtisadiyyatı üçün prioritet təşkil edən Qarabağın yenidən inşası, Zəngəzur dəhlizinin zəruriliyini əks etdirir. Həmin məqalələr də işğaldan azad olunan ərazilərimizin, xüsusilə də Şuşanın siyasi, iqtisadi və mədəni həyatından bəhs edilir.




Əli müəllim Şuşaya səfərini, Zəfər yolu ilə keçdiyi səyahəti könlünün səsi ilə təqdim edir. Məqalələr oxuyan hər bir oxucunu, bütövlükdə, Azərbaycan vətəndaşlarını əl-ələ verərək doğmalıqla, vüsal həsrəti, həyəcan, ürək çırpıntısı ilə Şuşanı görməyə səsləyir.

Müəllif "Bu yol Şuşa yoludur" adlı kitabında yer alan məqalələrini bu fikirlərlə yekunlaşdırır: xalqımızın Ümummilli Lideri Heydər Əliyev ***"Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur"*** demişdir. Bu gün isə bütün Azərbaycanın dilində bir şüar vardır: ***"Şuşa bizimdir, Qarabağ Azərbaycandır!"*** Ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin Böyük Qələbə münasibətilə ***"Əziz Şuşa, biz qayıtmışıq!"*** müjdəsindən sonra yaranmış yeni reallıq isə addım-addım bizi tarixi torpaqlarımız Zəngəzura da qayıdacağımız günə yaxınlaşdırır.

"Naxçıvan Muxtar Respublikasının turizm marşrutları" adlı monoqrafiya isə ölkənin milli iqtisadiyyatında ənənəvi sahələrə yanaşı, yeni iqtisadi prioritetlərin nəzərə alınması müstəvisində tamamlanan və elmi cəhətdən əsaslandırılmış əsərdir. Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının qərarı ilə çapa tövsiyə olunmuş və tanınmış alim, Naxçıvan coğrafiyasının yorulmaz tədqiqatçısı, mərhum Nazim Babaəylinin xatirəsinə həsr edilmiş bu kitab Əli Cabbarovun Naxçıvanda turizmin inkişaf problemləri sahəsində 2003-cü ildən apardığı elmi araşdırmaların və müşahidələrin məhsuludur. Kitab dörd fəsildən ibarətdir. "Turizm marşrutu və onun mahiyyəti" adlanan birinci bölümdə bu sahənin nəzəri məsələləri əks olunur. "Naxçıvan Muxtar Respublikasının əsas turizm marşrutları" adlanan ikinci fəsildə 8, "Naxçıvan Muxtar Respublikasının perspektiv turizm marşrutları" adlanan üçüncü fəsildə 11, "Naxçıvan-Zəngəzur-Şuşa turizm marşrutu" adlanan dördüncü fəsildə isə 2 istiqamət üzrə turistlərin səyahəti zamanı cazibə elementlərinin gücü və turlar zamanı yaranan problemlər ətraflı şəkildə araşdırılmışdır. Oxucular kitabda "Naxçıvan-Əshabi-Kəhf turizm marşrutu", "Naxçıvan-Şahbuz-Batabat turizm marşrutu", "Naxçıvan-Əlincə turizm marşrutu", "Naxçıvan-Şahbuz-Ağbulaq turizm marşrutu", "Naxçıvan-Qarabağlar turizm marşrutu", "Naxçıvan-Ordubad turizm marşrutu", "Naxçıvan şəhəri üzrə ekskursiyalar" və "Naxçıvan-Duzdağ ekskursiya marşrutu" üzrə tədqiqatlarla tanış ola bilərlər.

Üçüncü fəsildə yer almış "Naxçıvan-Kükü-Gurbulaq turizm marşrutu", "Naxçıvan-Sədərək turizm marşrutu", "Naxçıvan-Badamlı turizm marşrutu", "Naxçıvan-Haçadağ turizm marşrutu", "Naxçıvan-Çənnəb turizm marşrutu", "Naxçıvan-Gəmiqaya turizm marşrutu", "Naxçıvan-Nehrəm turizm marşrutu", "Naxçıvan-Dırnıs turizm marşrutu", "Naxçıvan-Keçili turizm marşrutu", "Naxçıvan-Şərur-Şahbulaq turizm marşrutu", "Naxçıvan-Ordubad-Göygöl turizm marşrutu" adlı yazılarda verilmiş bilgilər isə Naxçıvana səyahət edən turistlər üçün gələcəkdə qiymətli məlumatlar olacaq.

Kitabın dördüncü fəslindəki "Naxçıvan-Qərbi Zəngəzur-Şuşa turizm marşrutu" və "Naxçıvan-Şərqi Zəngəzur-Şuşa turizm marşrutu" adlı məqalələr isə Zəngəzur dəhlizinin reallığa çevrilməsi ilə tarixi torpaqlarımız olan Qərbi Azərbaycanı görməyə cəlb edən cazibə elementlərinin işıqlandırılması baxımından əhəmiyyətlidir.

Beləliklə, mövzulara diqqət etdikdə aydın olur ki, burada müasir iqtisadi şəraitdə, milli iqtisadiyyatın uzunmüddətli perspektivləri prizmasında aktuallığı ilə seçilmiş olan turizm bölməsinin təşəkkülü, bu sahədə infrastruktur təsisatlarının əhəmiyyətliliyi, turizm sahəsinin məşğulluq çəkisi, əmək ehtiyatlarından istifadə olunması və digər məsələlər əhatə edilib. Kitab Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf problemləri üzrə tədqiqat aparan araşdırmaçılar, turizm ixtisası üzrə təhsil alan tələbələr, turizm-ekskursiya fəaliyyəti üzrə məşğul olan sahibkarlar, həvəskar turizmçilər və Naxçıvana səyahət edən turistlərin özləri üçün faydalı ola bilər.

**Cavadxan QASIMOV**
***Naxçıvan Dövlət Universitetinin dosenti***

Estafet

## Vətən deyəndə...

(Esse)




Neçə illər idi, elə bir yara almışdıq ki, qaysaq bağlamaq yerinə, gündən-günə daha da dərinləşirdi. Qarabağ adlı dərdimiz vardı. Ağır mərmilərdən yara almışdıq – o mərmilər bütöv bir millətin yarası idi. Qəlbimiz artıq döyünmürdü – xəncər saplanmışdı, tərpəndikcə bütöv bir millət qan ağlayırdı. Yaşamırdıq, ruhumuz cismimizdən ayrılmışdı elə bil.

2020-ci il 27 sentyabr günü. 30 il sonra sanki bir möcüzə baş verdi, qəlbimiz artıq vüsal sevinci ilə döyünməyə başladı, köksümüzə saplanan, başımızı dik tutmağa qoymayan o xəncəri Babək qeyrətli, Şah İsmayıl biləkli qəhrəmanlar qəlbimizdən söküb atdılar. Bir millət 30 il necə dözə bilər, axı?! Nə qədər söz verib sözünü tuta bilməz?!

Bizi bu qədər güclü tutub məğlubedilməz edən qəlbi Vətən sevgisi ilə, düşmənə qarşı intiqam hissi ilə döyünən yeni bir nəsil yetişmişdi. Elə bir nəsil ki ləkələnmiş qürurumuzu təmizlədi, bizə yenidən başımızı dik tutmaq səadəti bəxş etdi. Tapdanan, əzilən cismimizdən uzaqlaşan ruhumuz minlərlə qəhrəmanın gedişi, Vətənə çevrilməsi ilə cismimizə qayıtdı. Millət olaraq dözüb daşıya bilmədiyimiz yaralar, yanğılar, ağrılar ilə Xocalıdakı tanklar altında hayqıran ruhlar bizi o gün qarşıladı, bizə güc-taqət verdi. O gecə yağı gülləsinə tuş gəlmiş yüzlərlə nakam həmvətənimizin naləsi, əsir düşmüş ruhu 30 il dözüb-dözüb bu günü gözləyən milləti oyatdı. Bizi qarşılayan o ruhlar düşmənə qarşı sipər oldular. Vətən həsrəti çəkən minlərlə igid üçün barıt qoxusu ən gözəl qoxuya çevrildi, millət illərlə həsrətindən külə döndüyü Vətən uğrunda savaşa atıldı. Qartal qəfəsini qırıb azad səmada yenidən uçmağa başladı. Heç ətrini duymadığımız çiçəklər uğrunda minlərlə qönçələr fəda oldu. Bu gün o qönçələr torpağın qoynunda uyuyurlar, bu gün onlar artıq Vətəndirlər, torpağı müqəddəs edəndirlər.

Arxada qara bağlayan minlərlə qadın, gözüyaşlı körpələrini qoyan, övladının üzünü belə görməyən, amma ona ən böyük hədiyyəni – bütöv Azərbaycanı – bu cənnət diyarı bəxş edən, bu günündən, sabahından keçib daha heç kəs doğmalarını itirməsin, daha körpələr gözüyaşlı qalmasın deyə öz canını fəda edən, torpağa qovuşan, ruhu səmalarda dolaşan müqəddəs şəhidlərimizin, Vətən uğrunda öz sağlamlığından keçən qazilərimizin sayəsində azad olundu neçə illərdən bəri işğal altında inləyən yurdumuz.

Bu gün o Qartal azad səmada qıy vurur...

İllərdir, milyonlarla azərbaycanlının dözə, daşıya bilmədiyi dərdə təkbaşına sahib çıxan, daha heç kəs dərd çəkməsin, daha körpələr gözüyaşlı qalmasın deyə bu yükü təkbaşına çiyinlərində daşıyan, Vətən uğrunda canını fəda edən, yaralı Qartala qanad verən bütün fədailərimizin ruhu şad olsun!..

Mübariz millətimin qırılmaz iradəsi, əsir torpaqlarımızın azadlıq carçısısan, sən! Sönən ümidimizin yanan pənahı sənsən! Bayrağımın sancıldığı müqəddəs yer də sənsən! Azərbaycan incisisən – Şuşa qalası Vətən!..

**Nəzrin ABBASLI**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə I kurs tələbəsi***

## Kitab təqdimatı keçirilib

*AMEA Naxçıvan Bölməsində "Kəmalə: taleyi və sənəti" kitabının təqdimatı keçirilib.*



Tədbiri açan bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev diqqətə çatdırıb ki, institutun ədəbiyyatşünaslıq şöbəsi tərəfindən nəşrə hazırlanan "Kəmalə: taleyi və sənəti" kitabı şairənin ədəbi irsinin təbliğinə və öyrənilməsinə növbəti töhfədir.

Təqdimat mərasimində "Şairə Kəmalənin bədii irsinin öyrənilməsində yeni səhifə" mövzusunda məruzə edən professor Əbülfəz



Quliyev qeyd edib ki, "Taleyi və sənəti" seriyasından kitablar AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin təşəbbüsü ilə nəşrə başlanılmışdır. Təqdimatı keçirilən yeni kitab da bu seriyanın sayca 16-dır.

Məruzəçi şairə Kəmalənin həyatı, əmək fəaliyyəti və çoxşaxəli bədii yaradıcılığı haqqında əhatəli məlumat verib. Vurğulanıb ki, "Taleyi və sənəti" seriyasının əvvəlki nəşrlərində olduğu kimi, yeni kitabda da dəyərli tədqiqat mövzularından ibarət məqalələr yer almışdır. Yeni nəşr Naxçıvan yaradıcılıq məktəbinin tanınmış nümayəndəsi Kəmalənin həyatı, yaradıcılığı, tərcüməçilik, publisistik, pedaqoji və ictimai fəaliyyəti haqqında ətraflı məlumat qaynağıdır.

Kitab filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımovun tərtibçiliyi, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin rəyi, filologiya üzrə fəlsəfə doktoru, dosent Elxan Məmmədovun elmi məsləhətçiliyi və sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent, şairənin oğlu Ələkbər Qasımovun elmi redaktorluğu əsasında ərsəyə gəlmiş, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəfis tərtibatda çap edilmişdir.

İnstitutun Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov təqdimat mərasimindəki məruzəsində rəhbərlik etdiyi şöbənin 2022-ci il üzrə fəaliyyətinə nəzər salıb. Bildirib ki, yeni nəşrə daxil edilmiş elmi məqalələrdə şairənin nəğməyə çevrilmiş incə ruhlu poeziyası, dünya ədəbiyyatından dilimizə tərcümə etdiyi əsərlər araşdırılmışdır.

Kitabın sonunda müəllifin zəngin və səmərəli həyatından fotolar oxuculara təqdim olunmuş, yaradıcılığına həsr olunmuş şeirlərdən nümunələr verilmişdir.

AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fondunun baş direktoru, filologiya elmləri doktoru Fərman Xəlilov, dosent Ələkbər Qasımov tədbirdə çıxış ediblər. Çıxışlarda Kəmalə Ağayevanın teatr fəaliyyəti, habelə şairənin Əlyazmalar Fondunda qorunan şəxsi arxivi barədə danışılıb. Şairənin oğlu İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi katibi, dosent Ələkbər Qasımov Kəmalənin yaradıcılığına, onun ədəbi irsinə göstərilən diqqətə görə tədbir iştirakçılarına və təşkilatçılara minnətdarlıq edib.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Teatrlarımız: sənət məbədlərimizin bugünkü problemləri hər kəsi düşünməyə vadar edir



*İctimai həyatımızda baş verən hadisələri özündə əks etdirən, cəmiyyətin güzgüsü və həssas bir sənət növü hesab edilən teatrlarımızın problemləri hamını düşündürməyə vadar edir. Onu da qeyd edək ki, "Biz artıq bu güzgüdə niyə özümüzü görmürük?" sualı teatr xadimlərini daha çox narahat edir. Teatr həyatının mənəvi yaradıcılıq mühiti həssas, səriştəli yanaşmaya ehtiyac duyduğu halda, bəzən qeyri-peşəkar müdaxilə onun təbiətindəki demokratizmlə bərabər, canlı harmoniyasını da bərbad edir. Ümumiyyətlə, səhnə sənətinin yaradıcılığı barədə danışarkən, teatr tənqidçiləri bu sənətin çağdaş dövrdə inkişaf meyillərini birmənalı şəkildə bir xətt üzrə inkişaf etdiyini deyirlər. Bu xətt ictimai rəyi, ictimai tənqidi səhnələşdirməkdir. Son illər cəfakeş sənət adamlarının fədakarlığı hesabına ayaqda qalan teatrlarımızın ictimai rəyi formalaşdıran tənqidlərə səssiz, söz deməyə ehtiyatlanmasını görmək, təbii ki, bizi də məyus edirdi.*





Bəs teatrlarımızın bu hallarla üzləşməsinin səbəbi nə idi? Məlumdur ki, belə mədəniyyət müəssisələrimizin əksəriyyəti dövlətdən maliyyələşir və bütün işçilər maaş alır. Kəmiyyəti az olan bir büdcəli təşkilatdan, təbii ki, keyfiyyətli iş tələb etmək haqsızlıqdır. Halbuki muxtar respublikada fəaliyyət göstərən teatrlarda kifayət qədər istedadlı aktyor fəaliyyət göstərir.

Məsələ ilə bağlı öncə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrına üz tutduq. Teatrın direktoru, Azərbaycanın Xalq artisti ***Rza Xudiyev*** bildirdi ki, hər bir teatrın döyünən ürəyi onun repertuarıdır, repertuar teatrın güzgüsüdür, tamaşaçı ilə teatr arasında ünsiyyətdir. Yaxşı repertuar olanda tamaşaçı da gəlir, biz də çalışırıq ki, teatrın repertuarı zəngin olsun. Ancaq bu günə qədər müəyyən məhdudiyyətlər var idi, vaxt olurdu 25-30 əsər təqdim edirdik, amma onların içərisində bizim üçün uyğun gəlməyəni seçilirdi. Bu da bizim aktyor və rejissorlar üçün çətin olurdu. Amma deyəsən, artıq bu buzlar əriyib, sərbəstlik verilib, repertuarı seçə biləcəyik. Çalışacağıq ki, builki repertuara daha yaxşı əsərlər daxil edək. Çünki tamaşaçı onu maraqlandıran problemlərə baxmağa gəlir, bu, əyləncəli və ya komediyalı olsa belə, ona baxmağa üstünlük verir.

Teatr repertuarından xəbərsiz insanların teatrı tənqid etmələri direktorları da narahat edir. Burada tamaşaçı qıtlığının hiss olunması heç də təkcə repertuar seçimindən asılı deyil. Rza Xudiyevin sözlərinə görə əsas məsələ vəsaitin az olmasıdır: "Yaxşı repertuarları ərsəyə gətirmək üçün, təbii ki, yaxşı da vəsait lazımdır. Çünki geyimlər alınmalı, dekorasiya yenilənməli, tarixi əsərlər üçün müəyyən avadanlıqlar əldə edilməlidir. Bu barədə bizim sıxıntımız var. Tamaşaların quruluşu üçün bizə az vəsait ayrılır. Demək olar ki, bir tamaşada istifadə etdiyimiz paltarlardan digər tamaşalarda da istifadə edirik, bu da təkrarçılıq olur. Əgər hər bir tamaşa üçün ayrıca vəsait ayrılsa, bu, teatr üçün əlavə stimul olar. Unutmayaq ki, yaxşı tamaşa ərsəyə gətirmək üçün yaxşı da maddiyyat lazımdır. Buna baxılsa, daha yaxşı olar. Ştat tərəfdən də bizim imkanlarımız məhduddur. Rejissor ştatımız var, amma ştat hələ də öz sahibinin yolunu gözləyir, çünki yerli rejissor yoxdur tamaşalara quruluş versin. Baş rejissor və quruluşçu rejissor, baş rəssam, ədəbi hissə müdiri, musiqi hissə rəhbəri yerləri də eləcə... Bunların da hamısı tamaşanın yaxşı hazırlanmasına kömək edən komponentlərdir. İxtisaslı kadrlar olmadığına görə çətinlik çəkirik".

2006-cı ildə fəaliyyətə başlayan Naxçıvan Dövlət Uşaq Teatrı da eyni aqibətlə üz-üzədir. Teatrın direktoru, Azərbaycanın Əməkdar artisti ***Tofiq Seyidov*** deyir ki, teatrda, ümumiyyətlə, aktyor ştatı yoxdur: "16 ildən çoxdur ki, fəaliyyət göstərir və bu illər ərzində teatrımız bir çox problemlərlə üzləşilib. Əsas problemlərdən biri aktyor ştatının olmamasıdır. Sadəcə, 9 nəfər texniki işçi və direktor var. Belə böyük yeri aktyorsuz idarə etmək, təbii ki, qeyri-mümkündür. Teatr yaradılanda düzgün istiqamətləndirilməyib. Bu illər ərzində fəaliyyətimiz, əsasən, məktəblilər və tələbələrlə olub. Həvəskar, eyni zamanda gələcəkdə aktyor olmaq istəyən gənclər cəlb etmişik və onların köməkliyi ilə tamaşalar sərgiləmişik. Təbii ki, onların 100-dən 1-i ancaq qalır da, qalmır da. Repertuar seçiminə gəlincə, daha çox xalq nağıllarını səhnələşdiririk. Eyni zamanda Azərbaycan və dünya dramaturgiyasında olan uşaq dramlarını hazırlayıb tamaşaçılara təqdim edirik. Buna baxmayaraq, problemlərimiz də çoxdur".

Teatrlarımızda olan problemlərdən Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi də xəbərdardır. Nazirliyin teatrın inkişafı və dövlət əhəmiyyətli tədbirlərin təşkili üzrə baş məsləhətçisi ***Kamran Quliyev*** deyir ki, teatrlarımızda olan əsas problemlərdən biri 2 il öncə ştatların ləğv olunmasıdır. Bunu nə qədər izah etməyə çalışsaq da, ona nail ola bilmədik. Məsələn, Naxçıvan Dövlət Kukla Teatrında kukla hazırlayan, baş inzibatçı, pedaqoq yoxdur, ştatlar ləğv edilib. Naxçıvan Dövlət Milli Teatrında da bir neçə ştat ixtisara salınıb. Heç cür izah edə bilmədik ki, bu ştatlar teatr üçün vacibdir. Butafor yazılan ştata baxan adam anlamır ki, bu teatr üçün nə deməkdir. İzah edirsən, deyir rəssamınız var da. Halbuki rəssamın işi tam fərqlidir. Bu günə qədər teatrlarda ən böyük problemlərdən biri repertuarların müəyyənləşdirilməsi idi. Teatrın özü öz potensialına uyğun repertuar seçməlidir və bu günə qədər teatr repertuarını dövlət – Ali Məclis müəyyənləşdirirdi. Təəssüflər olsun ki, nə qədər çalışsaq da, izah edə bilmirdik ki, təklif edilən əsər bugünkü problemləri özündə əks etdirmir. Belə bayağı əsərə tamaşaçı niyə gəlib baxmalıdır? İkincisi, təklif edənlər heç bilmirdi ki, teatrda olan truppada o əsəri oynayacaq gücə qadir aktyor var ya yoxdur? Üçüncü tərəfdən, tamaşanı repertuara rejissor işləyir, təqdim edir. Amma rejissorun heç nədən xəbəri olmur, təklif edirsən, sonra tələb edirsən.

Bu gün teatr barədə fikirlər müxtəlif ola bilər. Real olan isə müasir dövrümüzdə teatr strukturunun düzgün qurulmaması, sənət adamlarına kənar müdaxilələrin həddindən artıq olması və kadr çatışmazlığıdır. Bu isə, hər şeydən əvvəl, teatr sənətinin, onun yaradıcılıq sferasının və ifadə arsenalının yenidən dəyərləndirməsini tələb edir.

*Biz də mövcud problemləri işıqlandırmaqla, Ümummilli Liderimiz Heydər Əliyevin milli mədəniyyətimizə, incəsənətimizə necə böyük qayğı ilə yanaşdığını bir daha xatırladaraq, ölkəmizdə bu gün də mədəni siyasətin necə uğurla həyata keçirildiyinə arxalanaraq teatr sənətinin qədimliyi ilə öyünən diyarımızda bu sənət növünün yenidən dirçəldiləcəyinə, teatrlarımızın tezliklə, sözün əsl mənasında, sənət məbədinə çevriləcəyinə ümidvarıq.*

**Ceyhun MƏMMƏDOV**

*Bəşər tarixinin ən qədim çağlarından başlayaraq ailə və onunla bağlı münasibətlər öz əhəmiyyətinə görə digər münasibətlərdən əsaslı şəkildə fərqlənmişdir. Hər bir xalqın ailə dəyərləri, heç şübhəsiz, onun öz mənəvi xüsusiyyətlərinə, adətlərinə, yaşayış tərzinə söykənməkdədir. Bu baxımdan Azərbaycan xalqı da öz milli və mənəvi dəyərlərinə söykənən çoxəsrlik ailə dəyərlərini yaratmışdır. Lakin müasir dövrün inkişaf tempi, ölkələr arasında yaranan yeni münasibətlər, bu və ya digər səbəblərdən miqrasiya prosesləri, həmçinin kütləvi informasiya vasitələrinin və internet resurslarının bolluğu müxtəlif xalqların bir-birinin həyatına inteqrasiyasını sürətləndirmişdir.*

# Ailədaxili münasibətlərə zərər yetirən amillər ağır hüquqi nəticələr verə bilər



Təbii ki, ölkəmiz də bu zəruri inteqrasiyadan kənarda qalmır, beynəlxalq münasibətlərin subyekti kimi sosial-iqtisadi, siyasi və hüquqi müstəvidə öz yerini almaqdadır. Xalqların bir-birinin həyatına bu və ya digər səviyyədə inteqrasiyası yaxşı xüsusiyyətlərlə yanaşı, eyni zamanda digər problemlərə, eləcə də müəyyən qədər ailə problemlərinin yaranmasına da səbəb olur. Belə səbəblərdən biri də Avropa ölkələrinin televiziya kanallarının müxtəlif cihazların, eləcə də internet resurslarının köməyi ilə yaşayış evlərində yayımlanmasıdır. Bütün bunların nəticəsi olaraq ailə münasibətlərinə, ümumilikdə, qəbul etsək, cəmiyyətin və dövlətin maraqlarına uyuşmayan yad dəyərlər də daxil olmaqdadır. Əsrlərdən bəri özünün ənənəvi yaşayış qaydalarına uyğunlaşan bir cəmiyyətin bütöv halda həmin yad dəyərlərə, adətlərə qısa müddət ərzində uyğunlaşması mümkün deyil. Mümkün olmadığı kimi, həmçinin gələcəkdə hüquqi nəticələr doğuran bir çox səbəblər də yaratmaqdadır. Misal üçün ailədaxili münaqişələrin yaranmasına, məişət zorakılığına, və digər hüquqpozmalara rəvac verən səbəblər meydana çıxır. Zərərli informasiya məhsullarının respublika ərazisində yayımlanmasının cəmiyyətin müxtəlif yaş kateqoriyalarına, xüsusilə də uşaqlara vura biləcəyi zərəri nəzərə alınaraq “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Zorakılığın, qəddarlığın, narkotik vasitələrin və psixotrop maddələrin, alkoqollu və energetik içkilərin, habelə tütün məmulatlarının, cəmiyyət əleyhinə davranışın yolverilməzliyi həmin qanunun prinsipləri kimi müəyyən edilmişdir. Adıçəkilən qanunla informasiya məhsullarının yaş kateqoriyasına uyğun təsnifatı aparılmış, müxtəlif yaş qrupuna aid olan uşaqların normaya uyğun psixi inkişafının xüsusiyyətləri nəzərə alınmışdır. İnformasiya məhsulunun yaşa görə təsnifatlaşdırılması onun istehsalçıları tərəfindən həmin məhsulun Azərbaycan Respublikasının ərazisində dövriyyəsindən əvvəl müstəqil şəkildə və ya həmin qanuna müvafiq olaraq ekspertin iştirakı ilə həyata keçirilir.

Müasir dövrün sosial problemlərindən biri də internet resurslarından ifrat qaydada istifadə olunmasıdır. Mütəxəssislərin araşdırması nəticəsində müəyyən edilmişdir ki, internet resurslarından, həmçinin kompüter oyunlarından hədsiz dərəcədə istifadə olunması müəyyən xoşagəlməz vərdişlərin formalaşmasına gətirib çıxarır. Bu zərərli vərdişlərdən ən çox əziyyət çəkən isə, təbii ki, uşaqlardır. Həmin uşaqların inkişafında müəyyən qüsurlar yaranır və onların psixoloji vəziyyətində aqressivlik və qəzəb müşahidə olunur.

Virtual reallıq, özünün geniş imkanları ilə nəinki, uşaqları, hətta böyük yaş qrupuna daxil olan insanları da öz ağuşuna ala bilmişdir. Bu insanların bir çoxu elə həmin uşaqlara nəzarət etməli olan valideynlərdir. Çox mühüm və həssas məsələlərdən biri də kompüter oyunlarının real təhlükəyə çevrilməsidir. Belə oyunlardan biri “Kazino” oyunlarıdır ki, həmin oyunlar virtual qumar hesab olunur. Bütün asudə vaxtlarını monitor arxasında keçirən şəxslərin, eləcə də valideynlərin bu cür oyunlara aludəçiliyi məsələsi xüsusi narahatlıq doğurur. Kompüter oyunlarına aludə olan insan, sözün əsl mənasında, virtual reallıqda yaşayır, onu nə özünün, nə də ki, cavabdeh olduğu ailənin məsuliyyəti maraqlandırır. Mütəxəssislərin fikrinə görə, bu asılılığın ən pis tərəfi odur ki, o, adətən, yaxınlarınızda şübhə doğurmadan olduqca zərərsiz başlayır. Məhz buna görə də həmin oyunların aludəliyi ilə mübarizə aparmaq çox çətindir və həmin şəxsi xilas etmək elə də asan deyil. Çünki zaman keçdikcə oyunçunun ətraf mühitə, həmçinin ailə üzvlərinə diqqəti azalır, həm işdə, həm də evdə öz vəzifəsinə laqeyd yanaşır. Nəticədə, virtual oyunlardan asılılıq ailənin dağılmasına, işdə problemlərə səbəb olur, depressiyaya, tənhalığa gətirib çıxarır.

Müasirlik və ya müasir tələblərin yaxşı tərəflərini qəbul etmək, elm və təhsilin müasir yeniliklərinə yiyələnmək, əlbəttə, cəmiyyətin hərtərəfli inkişafına zəmin yaradır. Lakin bəzilərinin düşüncələrində müasirlik anlayışı yanlış olaraq birbaşa Avropa ölkələrinin sosial və mədəni arenasına daxil olmaq kimi başa düşülür. Onların həyat tərzinə uyğun yaşamaq arzusu, qısa müddətdə Avropa və ya başqa Qərb ölkələrinə inteqrasiya olunmaq tələskənliyi özlüyündə bir sıra sosial fəsadlar yarada bilir. Çünki çoxəsrlik ailə və cəmiyyət anlayışımıza, oturuşmuş adətlərimizə zidd addımlar heç vaxt birmənalı qarşılanmır və qarşılana da bilməz. Bunun nəticəsində cəmiyyətdə həmin şəxslərlə, eləcə də onların ailəsində tərbiyə alan uşaqlarla ünsiyyət müəyyən çətinliklər yaradır. Burada daha bir mühüm məqamı da vurğulamaq yerinə düşər ki, həmin şəxslərin yaşlı nəslin nümayəndələrinə qarşı, həmçinin öz valideynlərinə qarşı münasibətlərində müəyyən qədər laqeydlik, biganəlik hiss olunur. Yeri gəlmişkən qeyd edim ki, həmin laqeydlik məsələsinə münasibət ailə qanunvericiliyində öz əksini tapmışdır. Belə ki, ailə qanunvericiliyinə əsasən valideynlər uşaqları saxlamağa borcludurlar. Həmçinin yetkinlik yaşına çatmış övladlar da maddi yardıma ehtiyacı olan, əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa və onlara qayğı göstərməyə borcludurlar. Göründüyü kimi, qanunda bu tələb onun sosial mahiyyətinə görə təsbit edilmişdir. Çünki hər bir ictimai münasibət özünün sosial mahiyyətinə görə qanunvericilik normalarında əks olunur. Buna görə də milli qanunvericilik sisteminə daxil olan qanunun tələbləri bu xüsusiyyətləri özündə ehtiva edir. Qanunda nəzərdə tutulmasaydı belə, hər birimiz bu mənəvi tələbin milli xüsusiyyətlərdən yarandığını bilirik. Lakin bu normanın qanunvericiliklə müəyyən edilməsinin zəruri tərəfi ondan ibarətdir ki, ailə dəyərlərinin bu xüsusiyyəti də dövlətin müdafiəsi altındadır. Əgər ehtiyac yaranarsa, qanunun tələbi kimi icra olunacaqdır.

Sosial mahiyyətinə görə narahatlıq doğuran məsələlərdən biri də özünü doğrultmayan, köhnə adətlərə söykənən və ya köhnə adət-ənənələrlə pərdələnməyə çalışılan elə “tərbiyə” və ya elə “ailə idarəçiliyi” metodları vardır ki, ailədə uşaqlara və qadınlara qarşı zorakı hərəkətlərlə müşahidə edilir. Bəzən ailəyə şəxsi mülkiyyəti kimi baxan və davranan ailə başçıları olur. Lakin bilmək lazımdır ki, ailə qanunvericiliyinə əsasən nikah kişi ilə qadının ailə qurmaq məqsədilə könüllü ittifaqıdır. Nikaha daxil olarkən ailə münasibətlərində insanların bir-birinin hüquqları hər hansı formada məhdudlaşdırması qadağandır. Ər və arvadın ailə münasibətləri onların hüquq bərabərliyinə əsaslanır. İstər şəxsi əmlak hüquqları, istərsə də uşaqların tərbiyəsi və təhsili olsun. Birmənalı olaraq bütün ailə məsələləri ər və arvadın birgə səyi ilə həll edilməlidir. Qeyd edək ki, hüquqpozmaların bəziləri ailədaxili münasibətlərdə məişət zorakılığı ilə bağlı olur, yəni şəxslərin birinin digərinə qəsdən fiziki təzyiq göstərməsi, zor tətbiq etməklə təhlükəsizliyini pozması, döyməsi, sağlamlığına zərər vurması, işgəncə verməsi kimi hallar da baş verir. Qeyd olunan hərəkətlərlə ailə üzvlərinin hüquqlarının pozulması hüquqi məsuliyyət yaradır və təqsirkar şəxslər yol verdikləri əməllərə görə cavabdehlik daşıyırlar. Qanunvericiliyə əsasən ərin (arvadın) yaxud uşaqların sağlamlığına və ya həyatına qarşı qəsdən cinayət törədilərsə, həmin şəxslər cinayət məsuliyyətinə cəlb edilməklə yanaşı, valideynlik hüququndan da məhrum edilə bilərlər. Məhkəmədə valideynlik hüquqlarından məhrumetmə işinə baxılarkən həmin valideynlərdən (onlardan birindən) uşağa aliment tutulması məsələsi də həll edilir. Valideynlik hüquqlarından məhrum edilmiş valideynlər uşağa münasibətdə həmin uşaqla qohumluq faktına əsaslanan bütün hüquqlarını, o cümlədən gələcəkdə uşaqdan hər hansı təminat almaq, habelə uşaqlar üçün təyin edilmiş dövlət müavinəti almaq və imtiyazlardan istifadə etmək hüququndan məhrum olurlar. Məsələn, gələcəkdə həmin valideynlər və ya onlardan biri əmək qabiliyyətini itirərlərsə və yardıma ehtiyacları olarsa, həmin övladına münasibətdə özlərinin saxlanmasını və ya onlardan aliment tələb etmək hüququnu, həmçinin həmin uşağa münasibətdə vərəsə olmaq hüququnu və digər hüquqlarını da itirmiş olurlar.

Məzmun etibarilə ailə münasibətlərinə təsir edən amillər və onların hüquqi nəticəsi barədə müəyyən məlumatları oxucuların nəzərinə çatdırmağa çalışdıq. Lakin ailə münasibətlərinə, həmçinin onun dəyərlərinə zərər yetirən amillərin əhatə dairəsi kifayət qədər genişdir. Hər hansı hüquq pozuntusu, xüsusilə ailə münasibətlərinə edilən qəsd, bütövlükdə, cəmiyyətin və dövlətin maraqlarına edilən qəsd kimi başa düşülməlidir. Çünki bir ailədə kifayət qədər qayğı və nəvazişlə böyüməyən, yaxud fiziki və psixoloji təzyiqə məruz qalan uşaq gələcəkdə həm özünün, həm də başqalarının həyatı üçün ciddi təhlükə yaradır. Buna görə də vətəndaş cəmiyyətinin hər bir üzvü olaraq hər birimizin hüquqi və mənəvi borcu üzərimizə düşən məsuliyyəti dərk etməkdir. Bir sözlə, cəmiyyətin kiçik modeli və özəyini təşkil edən ailə, ailədaxili münasibətlər milli ailə dəyərlərimizə uyğun qorunmalı və müdafiə olunmalıdır. Bütövlükdə, dövlətin və cəmiyyətin daha da dinamik inkişafı naminə ailə münasibətləri də inkişaf etdirilməlidir.

**Siyavuş BABAYEV**
***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin əməkdaşı***

## Babək rayonunda təlim keçirilib



Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Babək Rayon İcra Hakimiyyəti tərəfindən dünən dekorativ-tətbiqi sənətin inkişaf etdirilməsi, qadınların bu sahəyə marağının artırılması, eyni zamanda onların sosial vəziyyətinin yaxşılaşdırılmasına kömək etmək məqsədilə rayonda yaşayan müvafiq kateqoriyadan olan qadınlar arasında dekorativ-tətbiqi sənətin bədii tikmə növü üzrə təlim keçirilib.

Babək Rayon İcra Hakimiyyəti başçısı aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini Asif Hacıyev tədbirin mahiyyətindən bəhs edib, bundan sonra da belə tədbirlərin davamlı olacağını diqqətə çatdırıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Ailə, qadın problemləri və gender məsələləri şöbəsinin müdiri Könül Babayeva çıxış edərək bildirib ki, qadınlar, xüsusən də evdar və sosial qayğıya ehtiyacı olan qadınlar arasında xalq tətbiqi sənət nümunələrinin, milli dəyərlərin yaşadılması istiqamətində işlər və sosial layihələr həyata keçirilir. Bu gün həyata keçirilən dekorativ-tətbiqi sənət sahəsinin bədii tikmə növü üzrə təlim də görülən işlərin davamıdır.

Bildirilib ki, bu gün də muxtar respublikada qadınların istedad və bacarıqlarının üzə çıxarılması, cəmiyyətin bütün sahələrində onların potensiallarından istifadə edilməsinə xüsusi diqqət yetirilir.

Sonda istedadlı qadın Miranə Həmzəyeva təlimə əyani vəsaitlərdən istifadə etməklə davam edib və sənətkarlıq sahəsi ilə bağlı təlim iştirakçılarını maraqlandıran sualları cavablandırıb. Təlim iştirakçıların marağına səbəb olub.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə gününün tələbidir

***Sual:*** *Təhlükədə qoyma ictimai əməl kimi nədə ifadə olunur?*

**Cavab**: Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə əsasən təhlükədə qoyma, yəni həyat və sağlamlığı üçün təhlükəli vəziyyətdə olan və özünü qorumaq üçün tədbir görmək imkanından məhrum olan şəxsi bilə-bilə köməksiz qoyma, əgər həmin şəxsi köməksiz qoyan onun qayğısına qalmalı idisə və ya onun özü zərərçəkmiş şəxsi həyat və sağlamlığı üçün təhlükəli vəziyyətdə qoyduqda, zərərçəkmiş şəxsə kömək göstərmək imkanı olduğu halda bunu etmədikdə min manatdan min beş yüz manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Qanunvericiliyə əsasən bu cinayət əməlinin obyekti insanın həyat və sağlamlığıdır. Yəni bu cinayətdən zərərçəkmiş şəxs qismində həyat və sağlamlığı üçün təhlükəli vəziyyətdə olan və özünü qorumaq üçün tədbir görmək imkanından məhrum olmuş şəxs çıxış edir. Cinayətin obyektiv cəhəti həyat və sağlamlığı üçün təhlükəli vəziyyətdə olan və özünü qorumaq üçün tədbir görmək imkanından məhrum olan şəxsi bilə-bilə köməksiz qoymadır. Əgər həmin şəxsi köməksiz vəziyyətdə qoyan zərərçəkmiş şəxsə kömək göstərmək imkanı olduğu halda bunu etmədikdə onun qayğısına qalmalı idisə və ya onun özü zərərçəkmiş şəxsi həyat və sağlamlığı üçün təhlükəli vəziyyətdə qoymuşdursa və 16 yaşına çatmışdırsa, o, cinayət məsuliyyəti daşıyır.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi***


## Elan

Şahbuz Rayon Kommunal Müəssisələri Kombinatı dəftərxana ləvazimatları, təsərrüfat malları və maşınların ehtiyat hissələrinin alınması üçün kotirovka sorğusu keçirilməsində iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir.

Tender və Kotirovka Komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

• *Maraq məktubu*
• *Malsatanın satdığı dəftərxana ləvazimatları haqqında məlumat*
• *Bank təminatı*
• *İş təcrübəsi haqqında sənəd*

Qeyd olunmuş sənədlər toplusunu 30 yanvar 2023-cü il, saat $18^{00}$-a kimi Şahbuz Rayon Kommunal Müəssisələri Kombinatına təqdim etmək lazımdır.

***Şahbuz Rayon Kommunal Müəssisələri Kombinatı***
***Əlaqə telefonu: (036)543-05-02***

### *İtmişdir*

Nəbiyev Şahin Hidayət oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraçuq kənd sakini Novruzov Ziyafət Əmir oğlunun adına olan JN-446$^{A}$ inventar nömrəli, 10304005 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Əziz Əliyev küçəsi, döngə 2, ev 7-də yaşayan Bədəlova Qızyetər Qaybalı qızının adına olan fərdi evin MH-0044211 seriya nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhər, Bulqan kəndində yaşayan Hənifəyeva Sevil İsmayıl qızının adına olan 154 inventar nömrəli texniki pasport və MH-0036007 nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

***

Bağırov Mehman Novruz oğlunun adına Ordubad rayon S.Vurğun küçəsində yerləşən sahəsi 63 kvadratmetr olan istifadəsiz binanın 002073 nömrəli şəhadətnaməsi itdiyindən etibarsız sayılır.

***

Şahbuz şəhər sakini Qurbanov Nicat İlyas oğlunun adına verilmiş sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 70